# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 258/2** **16 dekabr 2014-cü il**

**Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər) nəzərdə tutulan tədbirlərin icrası barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"-nın 13.2-ci "Beynəlxalq təcrübə nəzərə alınmaqla auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) layihəsinin hazırlanması" bəndinə əsasən hazırlanmış Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər) və Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.1-ci bəndində nəzərdə tutulan tədbirlərin icrası ilə əlaqədar Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun məruzəsini müzakirə edərək, Palatanın Şurası

**QƏRARA ALIR:**

**1.** "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər)" nəzərdə tutulan tədbirlərin icrası vəziyyəti qənaətbəxş hesab edilsin (Hesabat əlavə olunur).

**2.** Auditorlar Palatasının struktur bölmələrinə (Q.Bayramov, F.Qarayev, N.Talıbov, S.Gülməmmədov, M.Abbasov, V.Rəhimov, R.Cəfərov) tapşırılsın ki, Palatanın Şurası yanında fəaliyyət göstərən müvafiq komitələrlə birlikdə Konsepsiyanın icrasının təqvim planında 2015-2016-cı illər ərzində nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrasını təmin etmək məqsədilə zəruri tədbirləri həyata keçirsinlər.

**3.** Bu qərarın və hesabatın mətninin Auditorlar Palatasının internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**